**“Vergi ödəyicisinin fəaliyyətinin aktiv olub-olmaması barədə arayışın verilməsi” elektron xidmətinin**

**İstifadəçi təlimatı**

**“Vergi ödəyicisinin fəaliyyətinin aktiv olub-olmaması barədə arayışın verilməsi”** e-xidməti üzrə müraciət ərizəsinin təqdim olunması məqsədilə https://new.e-taxes.gov.az Portalına daxil olub “Giriş” bölməsi seçilir.




Giriş bölməsinə daxil olduqdan sonra açılan pəncərədə “Asan İmza” və yaxud “SİMA Token” bölmələrindən biri seçilir.




İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Asan İmza” bölməsi seçildikdə “Mobil nömrə” və “İstifadəçi ID” daxil edilir və “Daxil ol” düyməsi sıxılır.




İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA Token” bölməsi seçildikdə ilk öncə SİMA Token kompütərə qoşulur, sonra “Daxil ol” düyməsi sıxılır.




Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “Vergi ödəyicisinin fəaliyyətinin aktiv olub-olmaması barədə arayışın verilməsi" üçün müraciət ərizəsinin təqdim olunması ilə bağlı “Yeni ərizə” xanasına müraciətə uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan ərizə forması seçilir və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq ərizə forması seçilir.




Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması doldurularaq qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istədikdə ekrandakı qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **“Davam et”** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş ərizə

forması açılır və düzəliş imkanı mümkün olur. Müvafiq ərziə forması üzrə yeni ərizə formasını yaratmaq istədikdə isə **“Yenisini yarat”** düyməsi sıxılır.




Açılan ekranda vergi orqanı və vergi ödəyicisi barədə məlumatlar avtomatik olaraq əks etdirilir.




Əgər müraciət əsasında əldə ediləcək arayışın digər şəxsə təqdim olunması nəzərdə tutulursa, bu zaman “Arayış digər şəxsə təqdim edildikdə” çekboksu üzrə seçim edilir və arayışın təqdim edilməsi nəzərdə tutulan şəxsin VÖEN-i və ya adı müvafiq xanaya daxil edilərək axtarış nəticəsində əks olunan şəxs üzrə seçim edilir.




Daha sonra “Vergi Məcəlləsinin 30.2.1-ci maddəsinə uyğun olaraq aidiyyəti şəxslər tərəfindən arayışın həqiqiliyinin yoxlaması üçün arayışın məlumatlarına baxılmasına razıyam” çekboksu üzrə seçim edilir.




Daha sonra ərizənin göndərilməsi üçün ekranda aktivləşən **“İmzala və göndər”** düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.




“İmzala və göndər” düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




“**İmzala və göndər**” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi sıxıldıqda yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdılır.



Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə "Bildiriş" ekranda əks olunur. Həmin pəncərədə **"Çap"** düyməsi vasitəsi ilə ərizə çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **"Bağla"** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.




İstifadəçi tərəfindən "Vergi ödəyicisinin fəaliyyətinin aktiv olub-olmaması barədə arayışın verilməsi" ilə əlaqədar göndərilən elektron ərizə "Ərizələr" modulundakı "Göndərilənlər" qovluğunda, "Vergi ödəyicisinin fəaliyyətinin aktiv olub-olmaması barədə arayış" isə "Məktublar" modulunun "Daxil olanlar" qovluğunda əks olunur.







2419010001722400
(arayışın nömrəsi)
25.04.2024
(arayışın verilmə tarixi)

"CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir)
AZ1200, QUBADLI RAYONU, MURADXANLI Ə/V, AKİF ƏLİYEV
VÖEN: 9900050571

Vergi ödəyicisinin fəaliyyətinin aktiv olub-olmaması barədə

"CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir) (VÖEN 9900050571) fəaliyyəti hal-hazırda aktivdir.

Vergi qanunvericiliyi və inzibatçılığı, sığorta haqlarının hesablanmasına və ödənilməsinə münasibətdə sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta qanunvericilikləri ilə bağlı məlumat almaq üçün İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzinə (195), İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin internet saytına (www.taxes.gov.az) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Eyni zamanda istifadəçi tərəfindən Ərizələr" modulundakı "Göndərilənlər" qovluğundan da **"Çap"** düyməsi vasitəsi ilə ərizə çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.


Əsas səhifə
Məktublar
Ödəniş
Ərizələr
Bəyannamələr
Büdcə ilə hesablaşmalar
ƏDV Depozit Hesabı
E-qaimə-fakturalar
Onlayn növbə
Paketlər
Ərizələr 2024
Filtr
Köhnə sistemə keçid
Yeni Ərizə
Hamısına bax
Göndərmək istədiyiniz ərizənin növünü daxil edin
Göndərilənlər
Qaralamalar
Təsdiq gözləyən
Sırala: Təqdim olunma tarixi
Ərizə
Qeydiyyat nömrəsi
Status
Əməliyyatlar
Banklarda hesabların açılması üçün şəhadətnamə-dublikatın verilməsi
Təqdim edildi: 15.04.2024
2319010017540900
Aktivdir
Endir
Vergi Məcəlləsinin 77.5-ci maddəsinin tətbiqi ilə bağlı vergi ödəyicisi tərəfindən nəzarət-kassa aparatının quraşdırılmasına çəkilən xərclərin vergi öhdəlikləri ilə əvəzləşdirilməsi
Təqdim edildi: 14.04.2024 | Son dəyişiklik tarixi: 01.08.2023
2319010017513900
İcra üçün vermə
Endir
Hüquqi şəxsin uçot məlumatlarının dəyişdirilməsi
Təqdim edildi: 14.01.2024
2319010017467500
Aktivdir
Endir
Vergi ödəyicisinin fəaliyyətinin aktiv olub-olmaması barədə arayışın verilməsi
Təqdim edildi: 09.01.2024
2419010000156400
Sənəd göndərilib
Endir
Vergi ödəyicisinin filialının, nümayəndəliyinin qeydiyyatdan çıxarılması
Təqdim edildi: 09.01.2024
2419010000153300
Aktivdir
Endir
Vergi ödəyicisinin fəaliyyət növü (növləri) barədə arayışın verilməsi
Təqdim edildi: 09.01.2024
2419010000152600
Sənəd göndərilib
Endir
Şəxsi hesab vərəqəsindən çıxarışın verilməsi
Təqdim edildi: 08.01.2024
2419010000150200
Sənəd göndərilib
Endir
Şəxsi hesab vərəqəsindən çıxarışın verilməsi
2419010000149800
Sənəd göndərilib
Endir
ALPHA
"CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir)
Elvin Hüseynov,
Layihə Rəhbəri
VÖEN 9900050571
Qeydiyyat tarixi 19.11.2004
Fəaliyyətin dayandırılma tarixi 15.03.2022
Fərdi vergi təqvimi
Yanvar 2024 - Fevral 2024
Be Ça Ç Ca C Ş B
9 10 11 12 13 14
15 16 17 18 19 20 21
22 23 24 25 26 27 28
29 30 31 1 2 3 4
5 6 7 8